# AZƏRBAYCAN RESPUBLİKASI
# DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI
## Q Ə R A R
## № 2

**Bakı şəhəri** **22 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Şəhriyar Rafət oğlu İsgəndərovun Yardımlı Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il avqust ayının 07-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd İsgəndərov Şəhriyar Rafət oğlu Yardımlı Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2025-ci il fevral ayının 05-də elan edilmiş müsabiqə üzrə müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2025-ci il avqust ayının 07-də Dövlət Statistika Komitəsi aparatının Əhali statistikası şöbəsinin müdiri Rza Allahverdiyev, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Nigar Əliyeva və müstəqil ekspert Ziyəddin Musayevdən ibarət komissiya tərəfindən keçirilmişdir. İsgəndərov Şəhriyar Rafət oğluna müsahibə komissiyasının üzvlərinin hər biri 13 bal vermiş və nəticədə iştirakçı 13 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 11.08.2025-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. İsgəndərov Şəhriyar Rafət oğlunun 2025-ci il 11 avqust tarixli apellyasiya şikayəti təmin edilməsin və Yardımlı Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2025-ci il avqust ayının 07-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: